# Rəbbin qula ən yaxın olan vaxtı gecənin sonudur

Əbu Umamədən rəvayət edilir ki, o, belə dedi: Amr ibn Əbəsə (Allah ondan razı olsun) mənə dedi ki, o, Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdi: "Rəbbin qula ən yaxın olan vaxtı gecənin sonudur, əgər sən o vaxt Allahı zikr edənlərdən ola bilirsənsə, ol".

[Səhih] [Əbu Davud, Ət-Tirmizi,Ən-Nəsai rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bizə xəbər verir ki, Rəbbin qula ən yaxın olduğu vaxtı gecənin son üçdə biridir. Ey mömin, əgər sən həmin vaxta müvəffəq olmusansa və bu vaxt ibadət edən, namaz qılan, zikr edən və tövbə edənlərdən olmağı bacarırsansa, (bil ki) həqiqətən də bu faydalanmağın və çalışmağın lazım olduğu bir fürsətdir.

http://www.sunnah.global/hadeeth/az/show/3236